2017-ci ilin yanvar-oktyabr aylarında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 808516,8 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çoxdur. Sənaye istehsalının 95,9 faizi malların, 4,1 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 40036,2 min manatlıq, qeyri-dövlət sektorunda 768480,6 min manatlıq məhsul istehsal edilmişdir.

2017-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikanın sənaye müəssisələrində 16166 nəfər işçi çalışmışdır ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2016-cı ilin müvafiq dövrünə nisbətən 1,8 faiz artaraq 371,8 manat olmuşdur.